# DASTANLARIMIZ

## aşıqların yaradıcılığında

***İndi təəssüf ki, aşıqlarımızın yaradıcılığının dastanlarımızla zəngin olduğunu söyləmək qeyri-mümkündür. Bunun müxtəlif səbəbləri var. Ancaq onların heç biri aşıqlarımıza haqq qazandırmır. Çünki əsl aşıq yaxşı saz çalıb oxuduğu kimi, həm də xalq yaradıcılığını mükəmməl bilməsi ilə fərqlənməlidir.***

Şifahi xalq ədəbiyyatı əsrlər boyu elin-obanın azadlıq meylinin və arzularının, vətənpərvərlik və qəhrəmanlıq hisslərinin bədii tərcümanı olmuş, əməkçinin mənəvi-əxlaqi təkamülünə, etik-estetik tərbiyəsinin püxtələşməsinə güclü təkan vermişdir. Realist ənənələr üstündə pərvəriş tapmış və xalqın təfəkkür və duyğuları ilə bahəm köklənmiş şifahi xalq yaradıcılığı incəsənətin bütün janrlarında inkişaf edərək elin gözəl həyat uğrunda, arzu və ideallarının gerçəkləşməsi naminə mübarizəsini əks etdirib. Şübhəsiz ki, hər milli mədəniyyətin ən fərqli, spesifik cəhətləri onun folklorunun, xalq yaradıcılığı mənbələrinin orijinallığındadır. Məhz bu baxımdan müasir dövrdə folklora maraq daha da artmış, peşəkar ədəbiyyatımızın kökü, ilkinliyi kimi qiymətləndirilərək, onun toplanması, araşdırılması, nəşri və öyrənilməsi sahəsində çox böyük işlər görülmüşdür. Bütün dövrlərdə bəşəriyyətin ən mütərəqqi, qabaqcıl fikirli şəxsiyyətləri, görkəmli elm, incəsənət, mədəniyyət xadimləri ağız ədəbiyyatı nümunələrinə həmişə ehtiramla, həssaslıqla yanaşmış, onu hər bir xalqın milli mədəniyyətinin özülü kimi qiymətləndirmişlər. Çünki xalq hər dəfə bu ölməz sənət incilərinə qayıdanda özünü tapır, öz gücünə, bədii dühasına yenidən inanır. M.Qorki vaxtı ilə təsadüfi deməmişdir ki, xalq yaradıcılığını toplayın, hər şey xalqdadır, folkloru bilmədən böyük ədəbiyyat yaratmaq olmaz.

Folklor nümunələrindən söhbət düşəndə, təbii ki, ilk növbədə dastanlar yada düşür. Çünki dastanlar Azərbaycan şifahi xalq ədəbiyyatının uzunömürlü janrlarındandır. Dastan nümunələrimizin əksəriyyətində ulu əcdadlarımızın təbiətlə, müxtəlif şər qüvvələrlə mübarizəsi, onların ən qədim dini əqidə və anlayışlarından tutmuş indiki dövrə qədərki ictimai-əxlaqi baxışları, vətənpərvərlik, qəhrəmanlıq və xoşbəxt həyat istəkləri öz ifadəsini tarmışdır. Azərbaycan folklorunda xalqın uydurduğu əfsanəvi qəhrəmanlarla yanaşı tarixi şəxsiyyətlərin adı ilə bağlı olan dastanlar da çoxdur. "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi ölməz abidələrlə yanaşı XV əsrdə yaşamış Qurbaninin adı ilə bağlı "Qurbani", XVI əsrin nümayəndəsi Abbas Tufarqanlının həyatından bəhs edən "Abbas və Gülgəz" adlı məhəbbət dastanları, XIX əsrin 70-ci illərində zülm və istibdada qarşı xalq üsyanlarına başçılıq edən "Qaçaq Nəbi", mərdliklə mübarizə aparan "Qatır Məmməd" və eləcə də bünlardan çox-çox əvvəl və sonra yaranmış bir sıra qəhrəmanlıq dastanlarımız bu qəbildəndir. Ümumiyyətlə Azərbaycan aşıq dastanları orta əsrlərdən başlayaraq XIX əsrədək inkişaf mərhələsi keçmişdir. Şifahi xarakterinə baxmayaraq ayrı-ayrı dastanlardakı süjet və bütöv kompozisiyanın qorunub saxlanılması aşıqlar tərəfindən mümkün olmuşdur. Başqa sözlə desək, Dədə-Qorqud dövrünün ağıllı, uzaqgörən ozanları, Koroğlu zəmanəsinin yeri gələndə qılıncı sözlə əvəz edən yanşaqları xalqın keşməkeşli həyatından bəhs edən dastanları, bir zamanlar yazıya köçürüləcəyinə əmin olmadıqlarından onları xalqın yaddaşına həkk etməyə çalışırdılar. Məlum olduğu kimi keçmişdə hər aşıq öz dastanını yaradırdı, bununla belə hər bir aşığın yaradıcılıq repertuarında özündən əvvəlki aşıqların da dastanları mühüm yer tuturdu. Bu və ya digər ustad aşığa həsr olunmuş ustadnamələrin yaranması da məhz bununla əlaqədardır. Məsələn, "Qurbani", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Leyli və Məcnun", "Şah İsmayıl" və s. yüksək sənət inciləri birdən-birə göydəndüşmə yaranmamışdır. Çox güman ki, bunlar müəyyən tarixi ədəbi zəminlə, kökü çox-çox dərinlikdə olan formalaşmış dastançılıq ənənələri ilə bağlı olmuşdur. Çünki bu dastanlarda təsvir edilən bütün aşıqlar el-oba məclislərinin yaraşığı, haqqı-nahaqdan ayıran, xeyirxah, ədalətli məsləhətləri ilə yol göstərən, müdrik, təmkinli, insanların dərdini, qayğısını ürəyində gəzdirən el ağsaqqallarıdır.

**Bəli, bu gün dastanlarımızın təbliğinə, onların aşıqlar tərəfindən xalqa çatdırılmasına çox ehtiyac var. Etik-estetik tərbiyəmizin püxtələşməsi, vətənpərvərlik hissinin gücləndirilməsi üçün bu xüsusilə vacibdir...**

**Nailə Qasımova**